● Elm adamları

# Musiqiyə həsr edilən ömür



Onun dünyaya göz açdığı şəhər Qafqazın Konservatoriyası, Azərbaycanın mədəniyyət paytaxtı, musiqi beşiyidir. Musiqişünas Aida Tağızadə 1934-cü il fevralın 5-də Şuşa şəhərində ziyalı ailəsində dünyaya gəlib. Atası Zeynal Tağızadə dilşünas, filologiya elmləri doktoru idi. Anası Sayalı Hacıyeva isə pedaqoji və tibbi təhsil almışdı.

Valideynləri Aida xanımın çox gözəl təlim-tərbiyə və təhsil almasına səy göstərirdi. O da ata-anasının arzu və ümidlərini doğruldurdu. Aida Tağızadə orta məktəbi bitirdikdən sonra Asəf Zeynallı adına Musiqi Məktəbində təhsil aldı. Həmin məktəbi qırmızı diplomla başa vurdu. Üzeyir bəy Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasına (indiki Bakı Musiqi Akademiyası) daxil oldu. Konservatoriyada fortepiano üzrə ifaçılıq şöbəsində oxumağa başladı. İki ildən sonra təhsilini musiqişünaslıq şöbəsində davam etdirdi. Ali təhsilini böyük uğurla başa vurdu.

Aida Tağızadə 1958-ci ildə Azərbaycan Dövlət Konservatoriyasında əmək fəaliyyətinə başladı. 1979-cu ildə görkəmli bəstəkar Cövdət Hacıyevə həsr olunmuş monoqrafiyası işıq üzü gördü. 1985-ci ildə çapdan çıxan növbəti kitabında isə o, bəstəkar Soltan Hacıbəyovun yaradıcılığını təhlil etmişdi. Elə 1969-cu ildə müdafiə etdiyi namizədlik dissertasiyasında da Soltan Hacıbəyovun əsərlərini, bəstəkarın üslubu üçün səciyyəvi olan bir sıra xüsusiyyətləri yüksək səviyyədə araşdırmışdı.

Müxtəlif qəzet və jurnallarda Aida Tağızadənin 100-ə yaxın məqaləsi dərc olunub. Həmin məqalələrində, əsasən Üzeyir bəy Hacıbəyli, Fikrət Əmirov, Qara Qarayev, Arif Məlikov və digər böyük bəstəkarların yaradıcılığı, özlərinə məxsus dəst-xəti, bədii üslubu təhlil edilib. Aida Tağızadə məqalələrində Müslüm Maqomayev, Fidan və Xuraman Qasımova bacıları, Sərvər Qəniyev, Elmira Səfərova, Fəridə Quliyeva, Aida Abdullayeva kimi sənətkarların yaradıcılığına da geniş yer verib. O, "XX əsr Azərbaycan musiqisi" məqalələr toplusunun tərtibçisi və elmi redaktorudur.

1996-2007-ci illərdə Türkiyənin Ankara Bilkənd Universitetində çalışdığı zaman da Azərbaycan musiqi mühiti ilə əlaqələrini davam etdirdi. "XX əsr Azərbaycan musiqisi" məqalələr toplusunun ikinci cildini hazırladı. Dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin 110 illiyinə həsr olunmuş həmin kitab 1997-ci ildə çap olundu.

Aida Tağızadənin istedadlı bəstəkarlarımızın yaradıcılığına həsr etdiyi kitab və broşürləri Azərbaycan musiqişünaslığına dəyərli töhfə hesab edilir. Milli musiqi mədəniyyətinin inkişafına böyük xidmətlər göstərmiş görkəmli sənətşünas, professor Aida Tağızadə bir çox elmi metodik əsərlərin və dərsliklərin müəllifidir. O, eyni zamanda bacarıqlı pedaqoq kimi uzun illər musiqişünaslar nəsli yetişdirib. "Musiqi tarixi" kafedrasının müdiri işlədiyi zaman yüksək təşkilatçılıq bacarığını göstərib. Aida Tağızadənin rəhbərliyi və iştirakı ilə neçə-neçə sənətşünaslıq dissertasiyası uğurla müdafiə olundu.

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 10 fevral, № 29.- S.11.